AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
MƏHƏMMƏD FÜZULİ adına ƏLYAZMALAR İNSTİTUTU

*Əlyazması hüququnda*

QULİYEV İBRAHİM ZÖHRAB OĞLU

# ƏLLAMƏ MƏHƏMMƏD BAĞIR MƏCLİSİ VƏ ONUN "BİHARÜL-ƏNVAR" ƏSƏRİ

**İxtisas: 7213.01-Dinşünaslıq**

**Fəlsəfə üzrə fəlsəfə doktoru
elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI-2015**

Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun “Ərəbdilli əlyazmaların tədqiqi” şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **Möhsün Zellabdin oğlu Nağısoylu**,
AMEA-nın müxbir üzvü, filologiya
üzrə elmlər doktoru, professor

**Rəsmi opponentlər:** **Nəsrulla Naib oğlu Məmmədov**,
filologiya üzrə elmlər doktoru, prof.

**Səbinə Ələsgər qızı Nemətzadə**,
ilahiyyat üzrə fəlsəfə doktoru

**Aparıcı müəssisə:** AMEA Fəlsəfə və Hüquq İnstitutunun Dinşünaslıq və Mədəniyyətin Fəlsəfi Problemləri şöbəsi

Müdafiə 22 yanvar 2016-cı il tarixdə, saat $12^{00-}$da AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun nəzdindəki Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** Bakı, Az.1001, İstiqlaliyyət 26, AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu.

Dissertasiya işi ilə AMEA-nın Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.

Avtoreferat “___” ____________ 2015-ci ildə göndərilmişdir.

Dissertasiya Şurasının elmi katibi,
ilahiyyat üzrə fəlsəfə doktoru, dos. **Z.A.Əbilova**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Allah insanları doğru və düzgün yola yönəltmək, onların bütün fərdi və ictimai problemlərini həll etmək üçün Qurani-kərimi göndərdi. Peyğəmbər (s) Allah tərəfindən göndərilən bu müqəddəs kitabı təkcə insanlara çatdırmaqla kifayətlənməyib, eyni zamanda orada yer alan ayələri insanlara açıqlayıb izah edirdi. Bütün müsəlmanlar Quranın kamil bir ilahi kitab olması haqqında müttəfiq fikirdədirlər. Lakin burada yer alan ayələr hər hansı bir məsələni ümumi şəkildə bəyan edir, orada yer alan hökmlərin bütün təfərrüatını izah etmir. Deməli, belə olan halda müsəlmanların qarşısında Quran ayələrini doğru-duzgun şəkildə başa düşmək və burada göndərilən hökmlərə necə əməl etmək problemi dayanırdı. Belə olan halda müsəlmanların vəzifəsi nədir sualı ortaliğa çıxır.

Qurani-kərim biz müsəlmanlara belə problemlərlə qarşılaşan zaman Peyğəmbərin (s) hədislərinə əməl etməyi əmr edir. Buna görə də müsəlman alimləri səhih hədislərin bütün müsəlmanlara höccət (dəlil) olduğu qənaətinə gəlmiş, müsəlmanların Peyğəmbərə (s) tabe olmasını vacib buyurmuşlar.

Allah Quranda Peyğəmbərə (s) itaət göstərməyin vacib olduğu haqqında kifayət qədər ayələr göndərmişdir. Həmin ayələrin birində belə bəyan edir:

“Söylə ki, “Allaha və onun Peyğəmbərinə itaət edin! Əgər üz döndərirsinizsə, şübhəsiz ki, Allah da kafirləri sevməz!”[1]

Peygəmbərin (s) hədislərində də o Həzrətə tabe olub, onun sünnəsini yaşatmağın vacib olduğunu görməkdəyik. Peyğəmbər (s) buyurur:

“Kim mənim sünnəmdən üz çevirərsə, məndən deyildir”.[2]

Qeyd etdiyimiz ayə və hədislərdən məlum olur ki, Peyğəmbərin (s) hədislərini öyrənmək və onları qoruyub saxlamaq dinimiz üçün böyük əhəmiyyət kəsb edir. Çünki hədislərdə Quranı izah edən və hətta orada olamayan, lakin icra edilməsi müsəlmanlara

---

[1] Ali-İmran surəsi, ayə -32

[2] Məhəmməd bin İsmail əl-Buxarı, Məktəbətu Əbdülhəmid Əhməd əl-Hənəfi, Misir, 1314 h/q, Nikah-1

vacib olan bəzi hökmlərin yerinə yetirilməsini göstərən ayinlər vardır.

Məşhur müsəlman alimi Xətib əl-Bağdadi (öl. 463/1071) hədisin ehtiva etdiyi mövzuların nə qədər əhəmiyyətli və əhatəli olduğunu irəli çəkərək yazırdı: “Hədis, tövhidin əsasları, Allahın sifətləri, Cənnət və Cəhənnəmin vəsfi, Cənnət əhli üçün hazırlanmış mükafatlar, Cəhənnəm əhli üçün hazırlanmş cəzalar, Allahın yerlərdə və göylərdə yaratdığı müxtəlif varlıqlar, mələklər aləminin əlamət və mahiyyəti haqqındakı məlumatları ehtiva edir...”[3] Belə olan halda hədisi buraxıb “Quran bizə kifayətdir” deyən şəxslərin öz fikir və sözlərində necə də yanıldıqları ortaya çıxır.

Hətta müsəlman alimlərinin bəziləri, o cümlədən Əvzai “hədisin Qurana olduğundan çox, Quranın hədisə ehtiyacı vardır” demişdir.[4] Sözün əsl mənasında Əvzai kimi bir müsəlman aliminin belə söz deməsi əbəs deyildir. Çünki hədis hər mövzuda şəriətin əsas vasitəsidir.

Bütün bu deyilənlərin fonunda bildirmək istəyirik ki, XVII əsr hədis ədəbiyyatı tarixinin fundamental əsərlərindən olan Əllamə Məhəmməd Bağır Məclisinin “Biharül-ənvar” əsərini tədqiq etmək mühüm əhəmiyyət kəsb edir. Tarixi qaynaqlardan məlumdur ki, XVII əsrin ikinci yarısı Azərbaycan Səfəvilər dövlətində siyasi sabitlik və elmi inkişaf dövrü kimi xarakterizə edilir. Bu dövrdə artıq Səfəvilərlə Osmanlı imperiyası arasında sülh müqaviləsi imzalanmış və bunun da nəticəsində siyasi sabitlik və mədəni inkişaf yavaş-yavaş öz bəhrəsini verməyə başlamışdır. Belə ki, Azərbaycanın müxtəlif bölgələrində, o cümlədən Təbrizdə, Şamaxıda və həmçinin Səfəvilərin tabeliyində olan digər bölgələrdə müxtəlif elm ocaqları fəaliyyət göstərməyə başladı. Zəngin mədəniyyəti olan islam dini fəaliyyətdə olan bütün elm ocaqlarında yeni üsullar əsasında tədris olunurdu. Bu işə isə biləvasitə ali dərəcəli ruhani hesab olunan şeyxülislam vəzifəsini tutmuş hər hansı bir şəxs rəhbərlik edirdi. Təsadüfi deyildir ki, Səfəvi hökmdarı Süleyman Şah Səfəvinin

[3] Xətib əl-Bəğdadi, Şərəfu əshabil-hədis, (nəşr: Mehmet Hatiboğlu), Ankara, 1972, səh. 8

[4] Əbu Ömər İbn Əbdülbirr ən-Nəməri, Camiu bəyanil-ilm və fəzlihi, c. II, ət-Təbəətül-müniriyyə, Misir, tarixsiz, səh. 101

dövründə (1666-1694) şeyxülislam vəzifəsinə təyin olunmuş (1687-ci ildə) dövrünün ensiklopedik alimi Əllamə Məhəmməd Bağır Məclisi həmin dövrdə ilahiyyat elmlərinin, xüsusilə də hədisşünaslığın və islam tarixşünaslığının inkişafına güclü təkan verdi. Onun elm sahəsində gördüyü ilkin işlərdən biri Səfəvilərin tabeçiliyində olan müxtəlif bölgələrdə, o cümlədən Azərbaycanda (Təbrizdə və Şamaxıda) mədrəsələr açmaq və burada dini elmlərlə yanaşı, bir çox dünyəvi elmləri də mükəmməl bilən tələbələr yetişdirmək idi. Bunun bariz misalını onun şəxsən yetişdirdiyi iyirmi dörd görkəmli azərbaycanlı ilahiyyatçıların həyatında görməkdəyik. Bütün bunlardan əlavə Əllamə Məclisinin gördüyü ən mühüm işlərdən biri də ilahiyyat elmləri sahəsində dəyərli və fundamental bir əsər yazmaq idi. Onun ilahiyyat elmləri sahəsində "Biharül-ənvar" adlı (hədisşünaslıq və islam tarixşünaslığı baxımından) ensiklopedik bir əsər yazması Səfəvilər dövlətinin elm və mədəniyyət tarixində ən böyük hadisə idi. Həmçinin o, "Biharül-ənvar" əsərində riyazi biliklərə də yer verməklə tənəzzülə uğrayan islam astronomiyasına yeni təkan verərək onu inkişaf etdirdi.

**Mövzunun öyrənilmə dərəcəsi.** XVII əsrin hədis ədəbiyyatı tarixinin ən görkəmli nümayəndəsi Əllamə Məhəmməd Bağır Məclisinin "Biharüı-ənvar" əsəri islam ilahiyyatını öyrənmək baxımından ən mötəbər və ən sanballı bir əsərdir. Əbəs deyildir ki, müəllif bu əsəri yazmasından 300 ildən artıq bir vaxtın keçməsinə baxmayaraq əsər hələ də müsəlman aləmindəki şöhrətini itirməmiş, əksinə zaman ötdükcə daha da məşhurlaşmışdır. Təəssüflər olsun ki, ölkəmizdə indiyə kimi belə bir mötəbər və fundamemental əsər haqqında heç bir araşdırma aparılmamışdır. Amma İran alimləri əsəri fars dilinə tərcümə etmiş, müasir dövr Cənubi Azərbaycan ilahiyyatşünaslığının ən görkəmli nümayəndəsi olan Əllamə Məhəmməd Hüseyn Təbatəbai Təbrizi (öl. 1983) 110 cildlik bu əsərin altı cildini təshih etmiş, onun hədislərinin hansı kateqoriyaya aid olduğunu göstərmişdir. Təəssüflər olsun ki, Əllamə Təbatəbai müəyyən səbəblər üzündən bu işi başa çatdıra bilməmişdir.

Bundan başqa yenə də müasir İran alimi Hüseyn Dərgahi "Mənahilül-əbrar fi təlxisi biharil-ənvar" adlı on cildlik bir əsər yazaraq burada əsər və onun müəllifi haqqında geniş məlumat vermiş

və daha sonra isə əsərdəki səhih bildiyi hədisləri fəsillərə ayıraraq adı çəkilən kitabında bira araya toplamışdır.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin qarşısında konkret olaraq görkəmli ilahiyyat alimi Əllamə Məhəmməd Bağır Məclisinin həyat və yaradıcılığını araşdırmaq, onun "Biharül-ənvar" əsərini və bu əsərin orta əsr mənbələrini öyrənmək məqsədi qoyulmuşdur. Bu məqsədə nail olmaq üçün dissertasiyada aşağıdakı vəzifələr yerinə yetirilmişdir:

- Əllamə Məhəmməd Bağır Məclisinin yetişdiyi dövrün nəzərdən keçirilməsi, onun həyat və fəaliyyətinin elmi şəkildə araşdırılması;
- "Biharül-ənvar" əsərinin hədis elmində yerinin müəyyənləşdirilməsi;
- "Biharül-ənvar" əsərində hədis elminin metodoloji problemləri;
- "Biharül-ənvar" əsərinin mənbələrinin quruluşunun və məzmununun təsviri və təhlili, mənbələrlə "Biharül-ənvar" əsəri arasında paralellər aparılması;
- "Biharül-ənvar" əsərinin Azərbaycan, o cümlədən ümumi ilahiyyat elminin inkişafındakı rolunun müəyyənləşdirilməsi;
- "Biharül-ənvar" əsərinin mənbələrinin müəllifləri haqqında məlumatların sistemləşdirilməsi;
- Əllamə Məhəmməd Bağır Məclisinin mənbələrdən istifadə metodunun müəyyənləşdirilməsi və bu yolla "Biharül-ənvar" əsərinin elmi-tədqiqat əsəri olduğunun göstərilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Dissertasiya işinin elmi yeniliyi ilk növbədə "Biharül-ənvar" əsərinin Azərbaycan ilahiyyat elmində bir mənbə kimi tədqiqata cəlb edilməsidir. Azərbaycan ilahiyyat tarixində Əllamə Məhəmməd Bağır Məclisinin həyatı və fəaliyyəti haqqında heç bir məqalə nəşr olunmamış, onun "Biharül-ənvar" əsəri indiyə kimi heç bir vaxt ayrıca tədqiqat obyekti kimi öyrənilməmişdir. Burada əsərin yüz on cilddə nəşr olunmuş qədim, və iri formatda iyirmi beş cilddə nəşr olunmuş müasir nəşrinin hər bir cildi ayrı-ayrılıqda nəzərdən keçirilmiş, əsərdəki hədis və təfsir üslubu, əsərdəki hədisi-şəriflərin sayı, rəvayət olunmuş hədisi-şəriflərin və qeyd olunmuş ayələrin şərhinin metodoloji əsasları təhlil

ediləndən sonra elmi ümumiləşdirmələr aparılmış, səciyyəvi xüsusiyyətləri qeyd edilmişdir.

**Tədqiqatın nəzəri əhəmiyyəti.** Dissertasiya işi hədis elmi haqqında Azərbaycan ilahiyyatşünaslığındakı mövcud təsəvvürləri nəzəri baxımdan genişləndirir, hədislərin elmi mənbə kimi öyrənilməsinin nəzəri əsaslarının möhkəmləndirilməsinə xidmət edir.

**Tədqiqatın təcrübi əhəmiyyəti.** Dissertasiyanın əsas müddəalarından Azərbaycan ilahiyyatı, elm və mədəniyyəti tarixi haqqında yazılan elmi-tədqiqat işlərində, universitetlərin müvafiq fakültələrində keçilən dərslərdə təcrübi faydalanmaq olar.

**Tədqiqatın obyekti və metodları.** Dissertasiya işinin əsas obyekti Əllamə Məhəmməd Bağır Məclisinin şəxsiyyəti və onun "Biharül-ənvar" əsəridir. Əsərdəki hədisləri araşdırmaq üçün müəllifin istifadə etdiyi mənbələr köməkçi tədqiqat obyekti kimi götürülmüşdür. Eyni zamanda ümumi ilahiyyat məsələlərinə dair Azərbaycan, türk, ərəb, fars, ingilis və rus dillərində yazılmış elmi-nəzəri ədəbiyyatdan tənqidi şəkildə istifadə olunmuşdur.

Tədqiqatda əsasən mənbələrin elmi təsviri və mətnlərin müqayisəli tutuşdurulması metodlarından istifadə edilmişdir.

**İşin aprobasiyası.** Tədqiqatın əsas müddəaları AMEA doktorantlarının 2012-ci ildə keçirilən konfransında, AMEA Əlyazmalar İnstitutunun seminarında dinlənilmiş, elmi-dövri mətbuatda nəşr olunmuşdur. Dissertasiya işi Əlyazmalar İnstitutunun ərəbdilli və farsdilli əlyazmaların tədqiqi şöbələrində müzakirə olunmuşdur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Dissertasiyanın əsas məzmunu.** Dissertasiyanın giriş hissəsində mövzunun aktuallığı əsaslandırılır, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilir, onun elmi yeniliyi, təcrübi əhəmiyyəti, obyekt və metodlarından bəhs edilir, işin aprobasiyası və quruluşu göstərilir.

Dissertasiya iki fəsildən ibarətdir.

Birinci fəsil **"Əllamə Məhəmməd Bağır Məclisinin dövrü, həyatı və elmi-dini fəaliyyəti"** adlanır. Birinci fəsildə üç yarımfəsil var. Birinci yarımfəsil "**"Əllamə Məhəmməd Bağır Məclisinin dövrü**" adlanır. Burada Səfəvilər dövlətinin ictimai-siyasi vəziyyəti, Səfəvi-Osmanlı münasibətləri və onların arasında imzalanmış sülh müqavilələri, bu müqavilələrin sayəsində əldə olunmuş siyasi sabitlik haqqında məlumatlar verilmişdir. Həmçinin burada Səfəvilər dövründə şeyxülislamlıq vəzifəsinin dövlət aparatındakı rolu, ali dərəcəli ruhanilərin xidmətləri və onların məhkəmədə tətbiq etdikləri şəriət normalarının mahiyyətindən bəhs edilir.

Həmçinin birinci yarımfəsildə XVII əsrin ikinci yarısında Səfəvilər dövlətində sosial-iqtisadi vəziyyət haqqında da məlumatlar öz əksini tapmışdır. Burada Səfəvilərin sosial-iqtisadi vəziyyətləri, onların həmin dövrdə yürütdükləri iqtisadi siyasət və bu siyasət nəticəsində əhalinin maddi vəziyyəti, şəhərlərin sosial-iqtisadi inkişafı araşdırılmışdır. Həmçinin burada Azərbaycanın məşhur şəhərlərinin ticarət mərkəzi kimi inkişaf etmələri, qonşu ölkələrlə olan ticarət əlaqələri, Avropa ölkələri, habelə Venetsiya, Genuya və Moskva dövləti ilə ticarət münasibətləri göstərilmişdir. Bundan əlavə əhalinin əsas gəlir və dolanışıq mənbələri, Azərbaycanda maldarlığın və kənd təsərrüfatının inkişafına da diqqət yetrilmişdir.

Bu yarımfəsildə araşdırılan məsələlərdən biri Səfəvilər imperiyasında elm və mədəniyyətin inkişafı ilə əlaqəli qısa məlumatların verilməsidir. Burada qabardılıran əsas məsələ tənəzzülə uğrayan islam astronomiya və riyaziyyat elmlərinin Əllamə Məclisi tərəfindən təzədən canlandırılması, onun "Biharül-ənvar" əsərində bu mövzunun din və təbiətşünaslıq baxımından araşdırılmasıdır.

Birinci yarımfəsildə Əllamə Məclisinin müasiri olmuş Səfəvi hökmdarları, onların hakimiyyət illəri və siyasi xətləri haqqında məlumatlar verilmişdir. Həmçinin burada onun görkəmli azərbaycanlı alim Ağa Hüseyn Xonsarinin vəfatından sonra 1687-ci ildə şeyxulislamlıq vəzifəsinə təyin edilməsi və bu vəzifədə olan zaman apardığı islahat və işlər haqqında məlumatlar öz əksini tapmışdır.

Birinci fəslin ikinci yarımfəsli **"Əllamə Məhəmməd Bağır Məclisinin həyatı və elmi-dini fəaliyyəti"** adlanır. Burada onun təvəllüdü, alim və fəzilətli bir soya mənsub olması, atası Məhəmməd Tağı Məclisinin (öl.1659) öz dövründə fətva əhli olan bir müctəhid olması, Əllamə Məclisinin müxtəlif elmi epitetləri göstərilmişdir. Burada onun doğum və vəfat tarixi mötəbər qaynaqlar əsasında araşdırılmış, ixtilaflı yerlər göstərilmiş və sonda düzgün bir nəticəyə gəlinmişdir.

Həmçinin burada diqqət yetirdiyimiz məsələlərdən biri də Əllamə Məclisinin öz dövründə olduğu kimi, müxtəlif dövrlərdə də öz məşhurluğunu və şöhrətini itirməməsi, hər dövürdə yazılmış biblioqrafiya əsərlərində onun "əllamə", "şeyxülislam", "böyük fəqih", "dahi filosof" və s. bu kimi epitetlərlə yad edilməsinin qaynaqlarla göstərilməsidir. Həmçinin burada Əllamə Məclisinin ustadlarının adları bir-bir göstərilmiş, onların bəzilərinin avtobioqrafiyaları haqqında geniş məlumat verilmişdir. Onun ustadları içində görkəmli filosof və İsfahan fəlsəfə məktəbinin banisi Mir Damət, onun yetirməsi və hal-hazırda müsəlman aləmində fəlsəfəsi hakim olan Molla Sədra ləqəbli Sədrəddin Şirazi, dəqiq elmlər sahəsində əvəzedilməz kəşflər sahibi Şeyx Bəhaəddin əl-Amili, fəlsəfəni şəriət üzərində ilk tətbiq edən fəqih-filosof Feyz əl-Kaşani və onların əsərləri haqqında geniş məlumatlar öz əksini tapmışdır.

Sonra bu yarımfəsildə Əllamə Məclisinin elmi şəxsiyyəti, onun hədis elmindəki xidmətləri, Əxbarilər və ya Üsulilər qolundan hansına mənsub olması, fəlsəfi görüşləri və fəlsəfəyə münasibəti də diqqət mərkəzində saxlanılmışdır.

İkinci yarımfəsildə Əllamə Məclisinin əsərləri haqqında məlumatlar verilmişdir. Burada müəllifin ərəb və farsca yazdığı 70-ə yaxın əsərləri, onların ehtiva etdiyi mövzular, nəşr tarixləri və yerləri

dəqiqləşdirilmişdir. Həmçinin burada ona aid olan lakin şübhə doğuran bəzi əsərlər də mötəbər qaynaqlar əsasında araşdırılaraq dəqiqləşdirilmiş və dissertasiya işinə əlavə olunmuşdur.

Birinci fəslin üçüncü yarımfəsli **“Əllamə Məclisinin yaradıcılığında “Biharül-ənvar əsəri”** adlanır. Burada adı çəkilən əsər haqqında məlumatlar verilib. Onun hansı dildə yazılması, əhatə etdiyi mövzular göstərilmişdir. Onun bu əsərini müsəlman alimləri “Dairətül-maarif” adlandırırlar. Həqiqətən də əsər ensiklopedik xarakter daşıyaraq dini elmlər sahəsi ilə yanaşı, bir çox dünyəvi elmləri də ehtiva etməkdədir. Əsərdə müəllif təfsir, hədis, fiqh, tarix, əxlaq, fəlsəfə, ədəbiyyat, dilçilik, astronomiya və s. elmlərə aid problemləri işıqlandırmışdı. Buna görə də müsəlman alimləri əsərə yüksək qiymət verərək onu islam elmlərinin ensiklopediyası adlandırmışlar. Burada “Biharül-ənvar”ın digər əsərlərə xas olmayan bəzi aşağıdakı xüsusiyyətlərindən bəhs etmişik:

I.Əsər bütün dini mövzulara aid fəsilləri ehtiva edən hədisləri özündə toplamışdır,

II.Müəllif nəql etdiyi hədislərin sənədlərini və yaxudda hədisləri hansı əsərdən almışsa onu qeyd edir.

III.Müəllifin bu əsərdə mənbə kimi göstərdiyi bəzi əsərlər dövrümüzədək gəlib çıxmamışsa da, bu əsər vasitəsilə həmin mənbələrlə tanış oluruq.

Həmçinin bu yarımfəsildə “Biharül-ənvar” əsəri haqqında alimlərin fikirlərinə diqqət yetrilmişdir ki, bununla da əsərin mötəbərliyi sübut edilmişdir. Məhəmməd Saleh əl-Hüseyni yazırdı: “Kutubi-ərbəədə olmayan hədisləri ehtiva edən bu kitabın yanında digərləri dərya yanında damcı kimidir. Şiə məzhəbində ona bərabər bir kitab yazılmamışdır”.

Hacı Nuri isə əsər haqqında yazırdı: “Yazılan əsərlər içərisində imamiyyə məzhəbinin ən şərəfli kitabı “Biharül-ənvard”ır. Ömrümə and olsun ki, indiyə kimi belə toplum əsər yazılmamışdır. O xəbərləri, onların zabt (hədisin nəql edilməsi yolu) və səhihliyini əhatə etməkdədir. Elə bir məsələ yoxdur ki, onu bu kitabda tapmayasan. Üsuliddin və furuiddinə, həmçinin tarix və kəramətlərə və digər mövzulara aid elə bir xəbər yoxdur ki, onda olmamış olsun. Orada xəbərlərin bəyanı, izahı və təhqiqi vardır”.

Sonra əsərin əhatə etdiyi mövzuların zənginliyi haqqında məlumatlar verilmişdir. Burada Əllamə Məclisinin "Biharül-ənvar" əsəri bir hədis kitabı olmasına baxmayaraq, demək olar ki, bütün dini mövzularla yanaşı, bir çox dünyəvi mövzuları da əhatə etməsi göstərilməkdədir. Çünki müəllif burada bütün aləmlər haqqında olan hədisləri toplamış və onları dəyərləndirmişdir. Buna görə də "Biharül-ənvar" əsərində din və təbiətşünaslıq problemləri baş mövzu hesab olunur. Əllamə Məclisi adı çəkilən əsərində din və təbiətşünaslıq arasında olan münasibəti elmi şəkildə əsaslandırmış, elmlə dinin arasında heç bir ziddiyyətin olmadığını, əksinə elmlə dinin vəhdət təşkil etdiyini göstərmişdir.

Əllamə Məclisi əsərdə yerin və göyün yaradılması haqqında böyük fəsillər açaraq əsərin 54-cü cildindən 63-cü cildinə qədər olan hədisləri və onlara verdiyi izahları tam olaraq təbiətşünaslıq problemlərinə həsr etmişdir.

Dissertasiyanın ikinci fəsli **"Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərinin hədis elmində yeri" a**dlanır. Bu fəsil də üç yarımfəsildən ibarətdir. Bu fəslin birinci yarımfəsli **"Biharül-ənvar"ın mənbələri"** adlanır. Burada dəqiq şəkildə tərəfmizdən müəyyənləşdirilmişdir ki, Əllamə Məclisi əsəri yazarkən 591 mənbədən istifadə etmişdir. "Biharül-ənvar" Küleyni (879-941), İbn Babaveyh əl-Qumi (915-991), Əbu Cəfər ət-Tusi (998-1067), İbn Şəhraşub, Əminüddin ət-Təbərsi, Məhəmməd bin Məkki (1508-1558), Şərif ər-Rəzi (öl.1015) və Şərif əl-Murtaza (945-1022), Əli bin Musa bin Tavus əl-Həsəni, İbnül-Mütəhhər əl-Hilli, Məhəmməd bin Əli əl-Kərakiçi, Cövhəri, Firuzabadi, Mütərrizi, Rağıb əl-İsfahani, İbn Faris, İbn Düreyd, Zəməxşəri, "Kütubu-sittə" müəllifləri, Əhməd bin Hənbəl, Əbu Cəfər ət-Təbəri, İbn Qüteybə, İbn Əsir, Fəxrəddin ər-Razi, Süyuti, Seyid Şərif əl-Cürcani, Təftəzani kimi hədis, təfsir, əqaid və fiqh alimlərinin də daxil olduğu bir çox görkəmli müəlliflərin yazdıqları əsərlərdən istifadə edilərək yazılmışdır. Əllamə Məclisi ayrıca əsərlərin müəlliflərinə nisbətini, nəşr tarixlərini, nüsxə üzərində təshih qeydi olub-olmadığını araşdırmış və qaynaqların tənqidi mövzusunda əhəmiyyətli işlər də görmüşdür. İstifadə etdiyi əsərlər üçün təşkil etdiyi işarə və rəmzləri də açıqlayan müəllif, hədislərin sənədlərini mürsəl (qopuq) olmayacaq dərəcədə qısaltdığını ifadə edir, ayrıca ravilərin ad, ləqəb

və nəsəbləriylə əlaqədar qısaltmaları verərək əsərin ana hissələrinə keçir.

İkinci fəslin ikinci yarımfəsli **"Əllamə Məhəmməd Bağır Məclisinin mənbələrdən istifadə metodu"** adlanır. Burada müəllifin təfsir, hədis, tarix, fəlsəfə və digər elmlərə aid mənbələrdən istifadə metodu araşdırılmışdır. Əllamə Məclisi mənbələrdən istifadə edərkən onların dəqiqləşdirilməsi üzərində çox çalışmışdır. O, əsərin müqəddiməsində ikinci fəsilə "istifadə olunmuş kitabların sağlam və etibarlı hala salınması" adı vermiş və burada müraciət etdiyi mənbələri necə təshih etdiyi haqda məlumat vermişdir. O, "Kütubu-ərbəə"nin ("Üsuli-kafi", "əl-Fəqih", "Təhzibül-əhkam" və "əl-İstibsar" əsərlərini) heç bir təshihə ehtiyac olmadığını, əsrlərdir ki, alimlərin ona etimad etdiyini qeyd etmiş və bununla yanaşı, Şeyx Səduqun bir çox əsərlərini də bu qurupdan olduğunu vurğulamışdır. Lakin bunlara baxmayaraq o, Şeyx Səduqun "əl-Amali", "əl-Xisal" və "Kitabu əxbarir-Rza" əsərlərini isə təshih etdiyini yazırdı.

Əllamə Məclisinin əsərindəki üslublarından biri də hədislərin nəqlində təqti (kəsik) və cəm (toplum) yolunu tutmasıdır. Bu xüsusiyyət yalnız bu əsərə məxsusdur və biz bunu digər əsərlərdə görmürük. Belə ki, müəllif bir hədisi sənədi kəsik halda münasib fəsildə yerləşdirmiş, sonra isə həmin hədisə qayıdaraq onu başqa bir yerdə tam olaraq qeyd etmişdir. Bunu o, əsərinin bəzi yerlərində söyləməkdədir.

Həmçinin müəllifin digər bir üslubu da bəzi uzun hədisləri qısa olaraq mövzuya lazım olan şəkildə nəql etməsidir. Buna belə münasibət bildirir: "Hədis uzundur, ondan yalnız istədiyimiz miqdarı nəql etdik".

Müəllif əsərdə qeyd etdiyi hədisi izah edəcəksə, aşağıdakı sözlərdən istifadə etmişdir: "Əqulu, bəyan, tənvir, izah, tibyan, təvzih, təfsir, şərh, təbyin".

"Biharül-ənvar" əsərini tədqiq edərkən məlum olmuşdur ki, müəllifin məqsədi heç də hədisləri kamil şəkildə şərh etmək olmamışdır. Bəlkə də onun hədislərə verdiyi bu qısa izahlarda əsas məqsədi hədisin mətnində keçən bəzi çətin başa düşülən kəlmələri və mənaları oxucunun diqqətinə sürətlə və rahatlıqla çatdırmaq olmuşdur. Bu məqsədə o, əsərinin bir çox yerində toxunmuşdur. Belə ki, o, yazırdı: "Çətin başa düşülən xəbərlərin izahında deyilən

təfsilatı söz başqa məqsədi istəməkdir, kitabda işarə etdiyimiz şərhlər oxucunu dərin təfəkkürə sövq etməkdir”.

Beləliklə, dissertasiyada müəyyən edilmişdir ki, müəllif özündən əvvəlki əksər qaynaqlara müraciət etmiş, onlardan iktibaslar gətirmiş və bəzən də həmin əsərlərdə keçən tarixi xətaları və uydurma rəvayətləri düzəltmişdir. Əsərdə tarixə aid mühüm xəbərlər “Qəsəsül-ənbiya” (Peyğəmbərlər tarixi) fəslində toplanmışdır. Əllamə Məclisinin “Biharül-ənvar” əsərində dinlər tarixinə aid xəbərlər, xüsusilə də peyğəmbərlər haqqındakı geniş məlumat din tarixşünaslığı baxımından çox qiymətlidir. Ayələr və səhih xəbərlərə söykənilməyə çalışan müəllif bu məlumatların faydalı olacağını düşünərək bəzən əsatirəbənzər rəvayətləri də nəql etmişdir.

Əllamə Məclisinin əsərdəki metodlarından biri də uzunçuluq olmamaq üçün istifadə etdiyi mənbələrə xüsusi rəmzlər qoyması və bunun da vasitəsilə hansı əsərə istinad etdiyini oxucuya bildirməsidir. Xatırladaq ki, bu üslub yalnız “Biharül-ənvar” əsərinə məxsusdur. Məsələn həmin rəmzlərdən aşağıdakıları qeyd etmək olar: ن – “Uyuni əxbarir-Rza (ə)”, ع- “İləlüş-şərai”, ك – “İkmaluddin və təmamun-nimət”, يد – “ət-Təvhid”, ل – “əl-Xisal”, لي – “Amali-Səduq”, ثو – “Səvabül-əmal”, مع – “Məanil-əxbar”, هد- “əl-Hidayə”, عد – “Əqaid”, ب – “Qərbül-isnad”, ير – “Bəsairüd-dərəcat”, ما – “Amali-Tusi”, غط – “Ğeybətuş-Şeyx Tusi”, مصبا – “əl-Məsabih”, شا – “əl-İrşad”, جا – “Məcalis”, ختص – “Kitabül-ixtisas”, مل – “Kamiluz-ziyarət”, سن – “əl-Məhasin”, فس – “Təfsiri-Əli bin İbrahim” və s.

İkinci fəslin üçüncü yarımfəsli **“Biharül-ənvar” əsərinin təhlili”** adlanır. Burada göstərilmişdir ki, əsər iyirmi beş iri cilddən ibarətdir. Bu cildlər böyük cildlər hesab edilir. Böyük cildin hər biri kiçik və orta həcmli cilddən ibarətdir. Belə olduğu halda böyük cildlər normal cildləmə üsulu əsasında cildləndikdə, əsər yüz on cilddən ibarət olmuşdur. Müəllif əsəri çox gözəl şəkildə tərtib etmiş və onu ana fəsillərə (kitab), sonra isə onları kiçik fəsillərə (bab) ayırmışdır. Əsərdə (1403/1983-cü ildə nəşr edilmiş iyirmi beş iri cilddə) yer alan ana mövzular aşağıdakı kimi sıralanmışdır:

**I cild:**

Müəllif əsərin birinci cildində müqəddimə bölümündə beş fəsil açmışdır. Birinci fəsildə istifadə etdiyi əsərlərin siyahısını, ikinci fəsildə həmin əsərlərin etibarlı olub-olmaması (təshihi) məsələsini,

üçüncü fəsildə həmin əsərlər üzərində qoyduğu işarələri (rəmzləri), dördüncü fəsildə əsərin bütün qaynaqlarını külliyyat şəkildə göstərməsini, beşinci fəsildə isə istifadə etdiyi əsərlərin sənədlərini qeyd etmişdir.

Müəllif əsərin birinci cildinə "Kitabül-əql vəl-ilm vəl-cəhl" adlı ana başlıq (fəsil) açmış, burada elmin və alimin fəzilətlərindən, onların qruplarından bəhs etmişdir. Bu cilddə qırx kiçik fəsil (bab) vardır. Əsərin müəllifi bu bölümə aid ilk olaraq Qurani-kərimin mövzu ilə əlaqəli ayələrini, sonra Peyğəmbərin (s) və İmamların (ə) hədislərini qeyd etmişdir. Müəllif əsərin bu cildində 1345 hədis toplamışdır.

**II cild:**

Əsərin ikinci böyük cildində yer alan mövzular "Kitabüt-tövhid vəs-sifati vəl-əsmail-hüsna" başlığı altındadır. Burada İmam Cəfər Sadiqin (ə) tələbəsi Müfəzzələ nisbət edilən "Tövhidil-Müfəzzəl"in birinci qismi, "ər-Risalətül-İhliciyyə" ilə şərhi və bəzi xütbələriylə açıqlamaları vardır. Bu cild otuz bir kiçik fəsildən (bab) ibarətdir. Müəllif burada Allahın vəhdaniyyətinə, Onun feili və zati sifətlərinə ayə və hədisləri toplamışdır. Həmçinin burada o, Allahın gözəl adlarına aid məsələlər, o cümlədən adların mənaları, onları zikr etməyin savabı və s. haqqında məlumatlar vermişdir. Əsərin bu cildində 1116 hədis var.

**III cild:**

Əllamə Məclisi əsərinin üçüncü cildində "Kitabül-ədl vəl-məad" adlı fəsil açmış, burada insanın iradə azadlığına, qəzavu-qədərə, insanın hidayət olmasına və ya zəlalətə düşməsinə, həmçinin onun imtahan olmasına, tövbə və şərtlərinə, insanın yarandığı maddəyə (torpağa), onun Allahla olan əhdinə (misaq), şəriət qanunlarının səbəbinə (iləluş-şərai), ölüm, bərzəx (ölümdən sonrakı) həyatına, qiyamətə, şəfaət və vəsilə anlayışlarına, Cənnətə və Cəhənnəmə aid problemlərə aid hədisləri qeyd etmişdir. Həmçinin müəllif burada ölümdən sonrakı həyata (məad) aid ayə və hədisləri toplamış və məadın nəqli dəlillərdən əlavə əqli yöndən də mümkünlüyünü isbat etməyə çalışmışdır. Əsərin bu cildi əlli doqquz kiçik fəsildən (bab) ibarətdir. Bu cildin hədis sayı 1328 ədəddir.

**IV cild:**

Əsərin bu cildində yer alan mövzular "Kitabul-ihticacat vəl-münazirat" adı altında yazılmışdır. Müəllif əsərinin bu cildində islamda mübahisə doğuran və müzakirə edilən bəzi dini, elmi və fəlsəfi mövzulara aid xəbərləri vermişdir. Əsərin bu cildində səhabələr haqqında mübahisələr və imamların günahsız olduğuna dair münazərələr yer alır. Şeyx Müfid və Şərif əl-Mürtəza kimi alimlərin mövzu ilə əlaqəli əsərlərini də əhatə edən və səksən üç babdan meydana gələn bu cild hicri 1301-ci (miladi 1884) ildə Təbrizdə nəşr edilmişdir. Bu clddə 872 hədis var.

**V cild:**

Əsərin beşinci cildi peyğəmbərlərin (ə) əhvalına aiddir. Bu cilddə müəllif həzrət Adəmdən (ə) başlayaraq həzrət Məhəmməd peyğəmbərə (s) qədər adları məlum olan peyğəmbərlər və onların tarixi haqqında məlumatları və bunlarla əlaqədar xəbərləri qeyd etmişdir. Həmçinin burada adları "Qəsəsül-ənbiya" kitablarında çox da keçməyən və peyğəmbər olmaları mübahisə doğuran bəzi şəxslər (məs; Cərcis) haqqında da məlumatlar vardır. Bu cild səksən üç kiçik fəsildən (babdan) ibarətdir. Bu cilddə müəllif islam fəlsəfəsinin mühüm problemlərindən biri olan peyğəmbərlərin günahsızlığı və onların mənəvi əhvalını və bu xüsuslarda edilən çeşidli etirazlarla bunlara verilən cavabları toplamışdır. Bu cilddə 1479 hədis var.

**VI cild:**

Əsərinin bu cildini müəllif tamamilə Peyğəmbərimizə (s) həsr etmişdir. Belə ki, o, Peyğəmbərin (s) doğumundan tutmuş vəfatınadək olan bütün məqamlara diqqət yetirmişdir. Peyğəmbərin (s) ata-babaları, onun möcüzələri, Quranın ecazkarlığının keyfiyyəti, Peyğəmbərin (s) Salman, Əbu Zər, Əmmar, Miqdad və bəzi səhabələrinin tərcümeyi-halları da bu cilddə incələnmişdir. Həmçinin burada o, Zəmzəm quyusunun qazılması, Fil hadisəsi kimi qədim tarixi mövzuları da qeyd etmişdir. Bu cild yetmiş iki kiçik fəsildən ibarətdir. Əsərin bu cildi müstəqil halda hicri 1323-cü (miladi 1906-cı il) ildə Tehranda çap edilmişdir. Bu cilddəki hədislərin sayı 896 ədəddir.

**VII cild:**

Yeddinci cildi müəllif bütövlükdə imamətə həsr etmişdir. O, burada imamətin zərurət və şəraiti, imamların doğulma halları, işlərində və elmlərində olan bəzi qəribəliklər, onların fəzilətləri,

onları sevməyin savabı, imamların övladlarının fəzilətləri haqqında olan xəbərləri qeyd etmişdir. Müəllif burada Şərif əl-Mürtəzanın, Şeyx Müfidin və Təbərisinin mövzu ilə əlaqəli əsərlərini bütövlükdə qeyd etmişdir. Bu cilddə 784 hədis var.

**VIII cild:**

Məllif əsərinin səkkizinci cildini Peyğəmbərdən (s) sonra ortalığa çıxan fitnələrə, xəlifələrin vəziyyətlərinə və onların hakimiyyət illərindəki vaqiələrinə, Cəməl, Siffin, Nəhrivan döyüşlərinə həsr etmişdir. Həmçinin burada müəllif Müaviyə bin Əbi Süfyanın İraq ətrafındakı qarət və qətli-amına, İmam Əlinin (ə) bəzi tərəfdarlarının vəziyyətlərinə aid məsələlərə və o Həzrətin (ə) qəzavətləri və kitablarına aid rəvayətləri qeyd etmişdir. Əsərin bu cildi altmış iki fəsildən (bab) ibarətdir. Əsərin bu cildi hicri 1275-ci ildə (miladi 1858-59) Təbrizdə çap edilmiş və Aga Razi tərəfindən farscaya çevrilən bu cildin "Məcaril-ənhar" adlı bir başqa farsça tərcüməsi də vardır. Bu cilddəki hədislərin sayı 1818 ədəddir.

**IX cild:**

Əsərin bu cildini müəllif İmam Əlinin (ə) əhvalına həsr etmişdir. O, burada İmamın (ə) doğumundan tutmuş vəfatınadək həyatının bütün günlərinədək olan hadisələri izləmiş, onun atasının imanı və islamdakı yeri haqqında məlumat vermiş və həmçinin onun yaxın tərəfdarlarının bəzilərinin həyatlarına da ötəri nəzər salmışdır. Bundan əlavə o, əsərin bu cildində İmam Əlinin (ə) soyundan gələn on iki imamın (ə) haqqında nəql olunmuş rəvayətlərə də yer vermişdir. Əsərin bu cildi yüz iyirmi səkkiz fəsildən (bab) ibarətdir. Bu cilddə isə 2169 hədis var.

**X cild:**

Əsərin onuncu cildini müəllif bütövlükdə Peyğəmbərin (s) qızı Fatimə əz-Zəhraya (ə) və onun iki oğlu - Həsən (ə) və Hüseynə (ə) həsr etmiş və onlar haqqında varid olmuş xəbərləri burada qeyd etmişdir. O, bu cilddə bəzi tarixi hadisələri işıqlandırmağa çalışmışdır. Müəllifin burada daha çox diqqət yetirdiyi məsələ məlum Kərbəla hadisəsi ilə əlaqədar olan məqamlardır. O, İmam Hüseynin (ə) qiyam etməsinin hikməti haqqında geniş bəhs etmişdir. Əsərin X cildində 1124 hədis vardır.

**XI cild:**

Əsərin bu cildi İmam Hüseyndən (ə) sonra müsəlmanların imamı olmuş Əli bin Hüseyn (ə), Məhəmməd Baqir bin Əli bin Hüseyn (ə), Cəfər Sadiq bin Məhəmməd Baqir (ə) və Musa əl-Kazim bin Cəfər Sadiq (ə) haqqında xəbərləri vermişdir. Burada o, hər bir imam haqqında mükəmməl məlumatları qeyd etmişdir.

**XII cild:**

Əsərin bu cildi yerdə qalan digər imamlara - Rza (ə), Cavad (ə), Həsən Əsğəriyə (ə) həsr olunmuşdur. Burada o, adı çəkilən imamlar haqqında müfəssəl məlumatlar vermiş, onların həyat yollarını geniş şəkildə izləmişdir. Həmçinin müəllif əsərin bu cildində həmin imamların bir çox səhabələri və onlardan rəvayət edənlər haqqında məlumatları qeyd etmişdir. O, İmam Rzanın (ə) həyatına aid xəbərləri daha geniş və təfərrüatlı şəkildə izah etməyə çalışmış və İmamın (ə) siyasi fəaliyyətinə aid olan bəzi məsələlərə də aydınlıq gətirmişdir.

**XIII cild:**

Əsərin bu cildi İmam Mehdinin (ə) şəxsiyyətinə həsr olunmuşdur. Burada müəllif imamın doğumundan tutmuş qeyb olmasınadək, qeyb olmasının səbəbləri, onun zühur etməsinin nişanələri və "Rəcət"in isbatına aid xəbərləri qeyd etmişdir. Müəllif burada Peyğəmbərin (s) belə buyurduğunu yazırdı: "Mən sizin aranızda iki ağır əmanət (səqəleyn) qoyub gedirəm. Onlara arxalanıb diqqət mərkəzində saxlasanız, heç vaxt yolunuzu azmayıb zəlalətə düşməyəcəksiniz. Bu iki şey Kövsər hovuzunun kənarında mənə qovuşana qədər heç vaxt bir-birindən ayrılmayacaqdır. Bu iki şey Allahın kitabı və mənim Əhli-beytim, itrətimdir".[3]

**XIV cild:**

Əsərin on dördüncü cildini müəllif təbiətşünaslığa həsr etmişdir. Burada o, Yer və Göy, onların yaranması və təbəqələri, fələklər aləmi, mələklər və cinlər, insanlar və heyvanlar, həmçinin ünsürlər haqqında məlumatlar vermişdir. Əllamə Məclisi əsərdə yerin və göyün yaradılması haqqında böyük fəsillər açaraq təbiətşünaslıq problemlərini geniş izah etmişdir. O, yerin və göyün yaradılmasını mütləq ilahi qüdrətə bağlayaraq Onun izni olmadan heç bir varlığın yarana bilməyəcəyini qeyd etmişdir. Həmçinin o, elmin insanlara Allah tərəfindən verildiyini və onun ilahi xarakterə malik olduğunu bildirmişdir.

**XV cild:**

On beşinci cildi müəllif "İman və Küfr" mövzusuna həsr etmişdir. Bu mövzu əsərdə üç hissədə işıqlandırılır; a) İman və onun şərtləri, möminlərin sifətləri və fəzilətləri, şiələrin fəzilət və əlamətləri, b) Gözəl və ali-əxlaqi keyfiyyətlər, c) Küfr və onun şöbələri, mənfi əxlaqi keyfiyyətlər. O, burada dinin əhəmiyyəti, islamın mənşəyi və mahiyyəti haqqında məlumatları qeyd etmişdir.

**XVI cild:**

Əsərin bu cildi "Adab vəs-sünən vən-nəvahi, vəl-kəbair vəl-üsyan" başlıqlarını ehtiva edir ki, burada müəllif ardıcıllıqla müxtəlif fəsillər açaraq orada təmizlik, gözə sürmə çəkmək (iktihal), yağlanmaq (təbəhhün), oyaq qalmaq, yuxu, səfər etmək, böyük günahlar, şəri cəzalar (hüdud) və s. haqqında məlumatlar vermiş və mövzu ilə əlaqəli hədisləri qeyd etmişdir.

**XVII cild:**

Müəllif əsərin bu cildini "əl-Məvaiz vəl-hikəm" mövzusuna həsr etmişdir. Burada o, moizə etmək, nəsihət vermək və bu kimi işlər haqqında xəbərləri toplamışdır. Əsərin bu cildi altmış dörd fəsildən ibarətdir. Əsərin bu cildi Əllamə Nurinin "Mustədrək" adlı əsəri ilə birlikdə hicri 1297-ci ildə (miladi 1880-cı il) Təbrizdə çap olunmuşdur.

**XVIII cild:**

On səkkizinci cild iki hissədən ibarətdir. Birinci hissədə "Təharət" mövzusu yer almaqdadır ki, burada altmış fəsil vardır. İkinci hissədə isə "Salat" mövzusu yer almış və yüz altmış bir fəsili əhatə etmişdir. Həmçinin müəllif burada məşhur alim Şazan bin Cəbrailin "İzahətül-illə" əsərini tam olaraq vermişdir.

**XIX cild:**

Əsərin bu cildi də iki hissədən ibarətdir. Birinci hissədə müəllif Qurani-kərimin fəzilətləri, onun adabı, Quran oxumağın savabı və onun ecazkarlığı haqqında məlumatlar vermişdir. Bundan sonra o, təfsirçi Nimanın "Təfsiri-Niman" əsərinin hamısını qeyd etmişdir. Cildin bu hissəsi yüz otuz fəsildən ibarətdir. Əsərin ikinci hissəsində isə müəllif zikr və onun növləri, dua etməyin adabı və onun şərtləri haqqında xəbərləri qeyd etmişdir. Bu cild yüz otuz bir fəsildən ibarətdir.

**XX cild:**

Əsərin bu cildi dini vergiləri - zəkat, xüms, sədəqə, bundan sonra orucluq, etikaf və sünnəti əməllər haqqında hədisləri toplamışdır. Müəllif bu cilddə islam iqtisadiyyatının əsaslarını gözəl şəkildə izah etmiş və mövzu ilə əlaqəli hədislər rəvayət etmişdir.

**XXI cild:**

Bu cilddə həcc, ümrə, Mədinənin əhvalı, cihad, yaxşılığa dəvət, pisliklərdən çəkindirmə kimi mövzular yer almışdır. O, həccin əhəmiyyəti haqqında yazırdı: "Həqiqətən də dinimizdə Kəbənin ziyarəti çox mühüm əhəmiyyət kəsb edir və onun çoxlu faydaları vardır. Kəbə evinin əhəmiyyətli olması təkcə bir formada olmayıb, özünü müxtəlif forma və sahələrdə göstərməkdədir".

**XXII cild:**

Əsərin bu cildi bütövlükdə "əl-Məzar" fəslini əhatə edir. Burada müəllif Peyğəmbər (s) və onun əhli beytinin (ə) qəbirlərini ziyarət etməyin savabı, ziyarətin qaydaları, ziyarət duaları və s. mövzuya aid xəbərləri vermişdir.

**XXIII cild:**

Burada yer alan mövzular "əl-Üqud vəl-iqaat" adı altında incələnir. Bu cilddə yüz otuz fəsil var.

**XXIV cild:**

Əsərin bu cildi şəri hökmləri əhatə etməkdədir. Burada qırx səkkiz fəsil vardır.

**XXV cild:**

Əsərin bu cildi bütövlükdə "İcazələr"i ehtiva edir.

**İkinci fəsildə** kiçik başlıq altında "Biharül-ənvar" əsərinə yazılmış nəzirələr və şərhlərdən bəhs edilir. Buraqda göstərilmişdir ki, "Biharül-ənvar" əsərinin cildlərinin miladi XIX (hicri XIII) əsrin başlarından etibarən edilən tək-tək nəşrlərindən sonra bütün cildləri ehtiva edən ilk daşbasma nəşri Tehran və Təbrizdə hicri 1303-1315 (miladi 1885-1897) illəri arasında reallaşdırılmışdır. Mirzə Məhəmməd Xəlil tərəfindən hazırlanan bu nəşrin bütün xərcləri o dövrün iki zəngin taciri tərəfindən ödənmiş və əsərin nüsxələri alimlərə ödənişsiz olaraq paylanmışdır. "Biharül-ənvar" üzərində aparılan əhəmiyyətli işlərdən biri Abbas bin Məhəmməd Rza əl-Quminin təşkil etdiyi "Biharül-ənvar"da olmayan rəvayətləri də ehtiva edən "Səfinətül-Bihar" adlı indeksidir. Əli bin İsmayıl əş-Şahrudi isə bu indeks üzərinə yazdığı bir müstədrəklə onun əskik

tərəflərini tamamlamağa çalışmışdır. “Biharül-ənvar”ın ikinci nəşri 110 cild olaraq hicri 1376-1394 (miladi 1956-1974) illəri arasında Tehranda edilmiş, bu nəşr bəzi tərtib dəyişiklikləriylə Beyrutda (1403/1983) təkrarlanmışdır.

“Biharül-ənvar”ın nəşrindən sonra bir çox alimlər onu bir mənbə olaraq götürüb onun tərtibatı əsasında ona nəzirələr də yazmışlar. Yazılmış bu əsərlərdən “Camiül-ənvar”, “Camiül-məarif”, “Camiül-hüquq”, “Cənnətül-məva”, “Həqaiqül-əsrar”, “Dürərül-bihar”, “Səfinətül-bihar”, “əş-Şifa fi əxbari Ali-Mustafa (ə) minəl-Bihar”. (Buna “əş-Şafi fil-cəmi beynəl-bihar vəl- vafi” də deyilir). “əl-Əvalim” və b. qeyd etmək olar.

Bu fəsildə əsər üzərinə yürüdülmüş tənqidlər və onlara verilən cavablar haqqında məlumatlar da vardır. “Biharül-ənvar” əsəri dini elmlər sahəsində ensiklopedik xüsusiyyət daşısa da, onun barəsində aparılan tədqiqatlar əsərdə olan bəzi naqislikləri üzə çıxarmaqdadır. “Biharül-ənvar” 1000 illik islami rəvayətlərinin toplam yazıldığı üçün səhih xəbərlər yanında bəzi uydurma rəvayətləri də ehtiva etməkdədir. Musa əl-Musəvfnin də bildirdiyi kimi, əsər xüsusilə şiəyə aid zəngin bir mədəniyyət xəzinəsi olmasına baxmayaraq, həm şiəyə həm də İslam ümmətinin birliyinə böyük zərəri toxunan əsassız bir çox məlumatlarla da doludur[5]. Şiə imamlarına nisbət edilən və onları fövqəlinsan xüsusiyyətlərə bürüyən kəramətlərə bağlı rəvayətlər bu növdəndir.

Burada qısaca olaraq islam alimlərinin və tədqiqatçılarının əsər barəsində dedikləri tənqidi fikirləri qeyd edək. Belə ki, Əllamə Seyyid Möhsün əl-Əmin yazırdı: “Heç kəsə gizli deyildir ki, onun əsərləri düzəliş və tərtibə ehtiyaclıdır. Əllamə Məclisinin izahları tələskənlik üzündəndir. Buna görə də onun faydası az, şübhələri isə çoxdur”[6].

Dissertasiyanın sonunda nəticə yazılmışdır ki, burada işə yekun vurulur və çıxarılan nəticələr ümumiləşdirilir.

Əllamə Məhəmməd Bağır Məclisinin “Biharül-ənvar” əsəri haqqında tədqiqatı tamamlayaraq aşağıdakı nəticəyə gəlmişik:

---

[5] Əllamə Məclisi, Biharül-ənvar, c. XX, Beyrut, 1412 h/q, yeni nəşri, səh. 16

[6] Əllamə Möhsün əl-Əmin, Əyanüş-şiə, c. IX, Beyrut, 1403 h/q, səh. 183

**1.** Əllamə Məclisinin "Biharül-Ənvar" əsəri də böyük bir hədis əsəridir və özündən əvvəlki hədis əsərlərindən bəzi üstün cəhətlərə malikdir. Belə ki, müəllif əvvəlki əsərlərdən daha da səmərəli şəkildə istifadə edərək onlarda olan bəzi xətaları təshih etmiş, bizim dövrümüzədək gəlib çıxmayan bəzi əsərlərdən iqtibaslar etməklə bizi də həmin əsərlərdən bəhrələndirmişdir.

**2.** XVII əsrdə Səfəvilər dövlətində siyasi sabitliyin yaranması nəticəsində dövlətin bütün ərazilərində elm və mədəniyyətin yüksəliş dövrü başlamışdır.

**3.** "Biharül-ənvar" əsərinin müqəddiməsində müəllifin geniş müqəddiməsi verilmiş, burada əsərin yazılmasının səbəbləri göstərilmiş, hədis elmlərinin ilahiyyat elmləri içərisində çox mühüm əhəmiyyət kəsb etdiyi qeyd edilmişdir. Əsərin mənbələri haqqında məlumatı əsəri oxuduqca müəllifin istinadından toplamaq mümkün olur.

**4.** Əllamə Məhəmməd Bağır Məclisinin mənbələrdən istifadə metodu da özünün zənginliyi ilə diqqəti cəlb edir. Bəlkə də islam aləmində bunun qədər zəngin mənbədən istifadə edən ikinci bir müəllif tapmaq olmaz. O, təqribən altı yüzə yaxın mənbədən istifadə etmişdir. Təhlil göstərir ki, müəllif şiə olsa da "Biharül-ənvar" əsərini yazmaq üçün hansısa konkret bir radikal etiqada, məzhəbə və təriqətə istinad etməmiş, əksinə müxtəlif dünyagörüşünə və məzhəblərə malik alimlərin əsərlərini seçməklə islamdakı təfriqəni aradan qaldırmağa, ümumi bir məxrəcə gəlib, əsl həqiqətə gəlməyə cəhd göstərmişdir.

**5.** Əllamə Məclisi "Biharül-ənvar" əsərində hədisləri kor-koranə şəkildə deyil, onu sənəd və mətn baxımından araşdırmış və səhih bildiyi hədisləri kitabına almışdır. Əlbəttə ki, bu o demək deyildir ki, onun əsərində keçən bütün hədislər doğrudur.

**6.** "Biharül-ənvar" əsərinin məzmununun öyrənilməsi göstərir ki, müəllif əsərdə yazacağı mövzu ilə əlaqəli fəsil açır, burada ilkin olaraq Qurani-Kərimin ayələrini, sonra mövzuya uyğun hədisləri qeyd edir, ayələrdə və hədislərdə keçən çətin başa düşülən kəlmələri izah edir və bu zaman dilçiliyə aid yazılmış ən qədim qaynaqlardan müqayisəli şəkildə istifadə etmişdir.

Dissertasiyanın əsas müddəaları müəllifin əsas tezis və məqalələrində də öz əksini tapmışdır:

1. Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərində islam fəlsəfəsinin bəzi problemləri. Dövlət və Din ictimai fikir toplusu, iyul-avqust, 2011, 4/24, s. 104-114.

2. Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərində Xristian dininin mənşəyi və mahiyyəti. Dövlət və Din ictimai fikir toplusu, noyabr-dekabr, 2011, 6/26, s. 132-146.

3. Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərində dəfn mədəniyyəti və qəbirləri ziyarət etməyin qaydaları. Bakı Dövlət Universiteti, Elmi məcmuəsi № 18, Bakı, 2012, s. 199-213.

4. Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərində din-tibb münasibətləri. Bakı Dövlət Universiteti, Elmi məcmuəsi, Bakı, 2012, s. 169-186.

5. Əllamə Məhəmməd Bağır Məclisinin Azərbaycan ilahiyyatşünaslığında rolu və xidmətləri. Ümummilli lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümünə həsr olunmuş Azərbaycanşünaslığın aktual problemləri III Beynəlxalq elmi konfransın materialları, 2-5 may, 2012-ci il, Bakı, Azərbaycan, s. 410-413.

6. Əllamə Məhəmməd Bağır Məclisinin "Biharül-ənvar" əsərində vergi sistemi, onun dini-tarixi əhəmiyyəti və problemləri. Dövlət və Din ictimai fikir toplusu, may-iyun, 2012 3 (29), s. 83-100.

7. Əllamə Məclisiyə görə "Qəraniq" hədisi və onun mahiyyəti, Bakı Dövlət Universiteti, İlahiyyat fakültəsi, Elmi məcmuəsi, № 19, iyun, 2013. s. 201-209.

8. "Biharül-ənvar" əsərində xaricilik və onun meydana çıxma səbəbləri. Dövlət və Din ictimai fikir toplusu, yanvar, 2015 № 1 (30), s. 66-78.

9. Рророк и его елементы (знаки) по версии Аллама Меджлиси (В контексте произведения «Бихарул-анвар»), Гилея Науковий Висник (Випуск 96 (5), Киев-2015, с. 418-422.

Guliyev Ibrahim Zohrab

**Allama Mahammad Baghir Majlisi and his work "Biharul-Anvar"**

RESUME

The thesis consists of two chapters (parts)

The first chapter (part) is called the **"period of life, scientific and religious activities Allama Mahammad Bagir Majlisi."** The first chapter (part) consists of three subchapters. The first subchapter called **"Period Allama Mahammad Bagir Majlisi."** It describes the political situation in the Safavid Empire, relations and a peace treaties between the Safavid and Ottoman Empire, and reached as a result of it political stability. Also described the role of Shaykh al-Islam in the state apparatus of the Safavid Empire, his work as a representative of the high religious person and Sharia rules which were introduced by them in the courts. At the same time this part has found its place socio-economic situation of the Safavid state in XVII century.

The second subchapter of the first chapter (part) is called the **"Life and scientific and religious activities of Allama Mahammad Bagir Majlisi."** It tells about the year of birth and about that he belongs to the noble, scientist family and his father Mahammed Tagy Majlisi (died in 1659) had been a prominent religious scholar. In this part, years of birth and death of Allama Majlisi was learned from reliable sources, it has been shown the contested seats, and in the end achieved the right result.

The third subchapter of the first chapter (part) is called the **"The role of the Biharul-Anwar in Allama Majlisi works."** It tells about this work, what language it is written, what topics it covers. Muslim scholars call this his work "Diaratul-Maarif". The work being encyclopedic, covering not only religion, but also a lot of world science.

The second chapter (part) of the thesis called "**The role of work Biharul-Anwar of Allama Mahammad Bagir Majlisi in hadith science."** And this chapter consists of three subchapters too. The first subchapter is named "Sources of work Biharul-Anwar."

Here, we have been well established that Allama Majlisi creating this work took 591 sources.

The second subchapter of the second chapter (part) is called **"Methods of use of sources of Allama Mahammad Bagir Majlisi"** It was investigated by the use of sources of tafsir, hadith, history, philosophy, and others. Allama Mahammad Bagir Majlisi conducted a thorough job on the issue of clarifying the sources used.

The third subchapter of the second chapter (part) is called the **"Analysis of the Biharul-Anwar."** This shows that the work is composed of 25 large volumes. Each them consists of a large volume and small and medium-sized volumes. In cases where large volumes were made as a result of usual (normal) binding, the work would consist of 110 volumes.

Ибрагим Зохраб оглу Гулиев

**«Аллама Мухаммед Багир Меджлиси и его работа «Бихаруль-Анвар»»**


## РЕЗЮМЕ

Диссертация состоит из двух глав (частей)

Первая глава (часть) называется **«Период, жизнь и научно-религиозная деятельность Аллама Мухаммед Багир Меджлиси»**. Первая глава (часть) состоит из трех подглав. Первая подглава называется **«Период Аллама Мухаммед Багир Меджлиси».** Здесь описаны общественно-политическая ситуация Сефевидской империи, отношения и мирные договоры между Сефевидской и Османской империей, и достигнутая в результате политическая стабильность. Также описана роль шейхуль-ислама в государственном аппарате Сефевидской Империи, его деятельность как высшего религиозного представителя и норм шариата внедряемыми ими в судах. В тоже время в этой части нашло свое место социально-экономическое положение Сефевидского государство в XVII веке.

Вторая подглава первой главы (части) называется **«Жизнь и научно-религиозная деятельность Аллама Мухаммед Багир Меджлиси».** Здесь рассказывается о годе рождения, о том, что он принадлежит к ученому, благородному роду, его отец Мухаммед Таги Меджлиси (умер в 1659 г.) был видным религиозным ученым. Здесь годы рождения и смерти Аллама Меджлиси были изучены из достоверных источников, были показаны оспариваемые места, и в конце, достигнут, правильный результат.

Третья подглава первой главы (части) называется **«Работа Бихаруль-Анвар в творчестве Аллама Меджлиси»**. Здесь рассказывается о данной работе, на каком языке она написана, какие темы она охватывает. Мусульманские ученые называют эту его работу «Диаратул-Маариф». Работа, являясь энциклопедическим, охватывает не только религию, но и множество мировых наук.

Вторая глава (часть) диссертации называется **«Роль работы Бихаруль-Анвар Аллама Мухаммеда Багир Меджлиси в хадиской науке».** И это глава состоит из трех подглав. Первая подглава носит имя **«Источники работы Бихаруль-Анвар».** Здесь нами было точно установлено, что Аллама Меджлиси создавая эту работу, воспользовался 591 источниками.

Вторая подглава второй главы (части) называется **«Методы использования источников Аллама Мухаммед Багир Меджлиси»** Здесь исследованы методы использования источников тафсира, хадисов, истории, философии и др. наук. автором. Аллама Мухаммед Багир Меджлиси провел тщательную работу в вопросе уточнения использованных источников.

Третья подглава второй главы (части) называется **«Анализ работы Бихаруль-Анвар».** Здесь показано, что работа состоит из 25 больших томов. Каждый большой том состоит из маленьких и средних томов. В случаи, если большие тома были сделаны в результате обычного (нормального) переплета, то работа состояло бы из 110 томов.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТЫ РУКОПИСЕЙ ИМЕНИ МУХАММЕДА ФИЗУЛИ**

**С правом на рукопись**

**ГУЛИЕВ ИБРАГИМ ЗОХРАБ**

# АЛЛАМА МУХАММЕД БАГИР МЕДЖЛИСИ И ЕГО РАБОТА «БИХАРУЛЬ-АНВАР»

**(7213.01 - Теология)**

**А В Т О Р Е Ф Е Р А Т**

**Диссертации на соискание ученой степени доктора философии по философии**

**Научный руководитель: Мохсуна Зеллабдин Нагысойлу**
**Член-корреспондент НАНА, доктор филологических наук, профессор**

**БАКУ - 2015**